# Milli heykəltəraşlığın Lənkəran nümunəsi














Lənkəran Azərbaycanın dilbər guşələrindəndir. Bu şəhər abadlıq, səliqə-sahman və memarlıq baxımından da həmişə seçilib. Hələ sovetlər dönəmində Lənkəran Azərbaycanın inkişaf etmiş şəhəri kimi tanınıb. İqlimin mülayimliyi, təbiətin gözəlliyi, şəfalı mineral suları ilə məşhur olan "Cənub mirvarisi" həm də turistlərin sevimli istirahət guşəsi olub.

Lənkəranın bugünü keçmişindən daha gözəl, daha abaddır. Şəhərin küçə və parklarında səliqə-sahman, təmizlik göz oxşayır. Sevindirici haldır ki, şəhərdə quruculuq-abadlıq işləri aparılarkən bölgəyə məxsus memarlıq üslubundan, milli naxışlar və ornamentlərdən geniş istifadə olunur.

Şəhərin parklarında qoyulmuş heykəllərin hər birinin özünəməxsus rəmzi mənası var. Cənub şəhərində ağsaqqala, ziyalıya xüsusi ehtiram göstərilir. Bu, həm də gələcək nəsillər üçün bir örnək, yəni böyüyə, ziyalıya hörmət göstərilməlidir anlamını verir.

Çay lənkəranlıların sevimli içkisidir. Axı dünyanın ən ətirli, dadlı-tamlı çayı da burada yetişdirilir. Yerli sakinlər çay içə-içə bir-biri ilə söhbətləşir, istirahət edir, sabahkı xeyir işlərin təməlini çay süfrəsi ətrafında qoyurlar. Şəhərdə olan heykəllərin çoxunun çayla bağlı olması da bu yerlərin, bir növ, simvoludur. Buraya gələn hər bir turist həmin heykəlləri görüb ilk andan hiss edir ki, çay lənkəranlılar üçün xüsusi önəm daşıyır.

Bol maddi nemətlərə malik Lənkəranın həm də mənəvi dünyası zəngindir. Xüsusilə muğamı bu şəhərdə çox sevirlər. Məşhur muğam üçlüyünə burada heykəl qoyulması da təsadüfi deyil. Bu, lənkəranlıların Azərbaycanın mənəvi sərvətinin tacı olan muğama bəslənən sonsuz məhəbbətinin sübutudur.

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***